Qəşəm NƏCƏFZADƏ

# "ULDUZ"LU SƏHƏRLƏRƏ SALAM...



*"Ulduz" jurnalının may sayı haqqında qeydlər*

***(Unudulmaz İsa İsmayılzadə və Aydın Məmmədovun xatirəsinə)***

Nəinki gəncliyin, bütün ədəbi nəsillərin taleyindən keçən "Ulduz" jurnalının altı yüzüncü sayı qarşımdadır: 2019-cu ilin beşinci, yəni may ayında çıxan sayı. Vaqif Səmədoğlunun belə bir şeiri var, hətta kitablarının birinə də bu adı qoyub: "Günün baxtı". Ad 9 May qələbə gününə aiddir. Indi belə demək də olar, ayın baxtı, may aynın baxtına bax ki, "Ulduz" jurnalının altı yüzüncü sayı onun taleyinə düşüb və burdan da mənim baxtıma bax ki, bu say haqqında təhlil yazısı yazmaq mənə tapşırılıb. Öz sevincimi qoyub bir yana, keçirəm jurnalının tarixini və həm də jurnalının sayını altı yüzüncü edən may nömrəsini vərəqləməyə...

"Ulduz" jurnalı 1967-ci ildən bu günə kimi ardıcıl olaraq çap olunur. Jurnalın ilk redaktoru gözəl şairimiz Cabir Novruz olub (1967-1972). Sonrakı illərdə Akif Hüseynov (1972-1973), Əhməd Cəmil (1973-1976), Yusif Səmədoğlu (1976-1986), Abbas Abdulla (1986-1993), Ələkbər Salahzadə (1993-2004), Elçin Hüseynbəyli (2004-2014) və indisə Qulu Ağsəs, 2014-cü ildən bu günə kimi jurnalın baş redaktorudur.

O vaxt jurnalın adını niyə "Ulduz" qoyublar, deyə bilmərəm. Amma bu illərdə ulduzla bağlı bir neçə ciddi sənət və ədəbiyyat hadisəsi baş verib: İsa İsmayılzadənin "Ulduzların ad günü" kitabı çap olunub. Və səhv etmirəmsə, bu illərdə "Dan ulduzu" instrumental ansamblı yaranıb. İsanın kitabı müasir ədəbi prosesə yeni hava gətirdi. Sanki güclü bir ədəbi dalğa qulaqları yara edən qafiyələri bir anda göyə sovurdu, qırıq araba kimi cırıldayan yorulmuş hecanı ruhun qanadlarına qaldırdı. Eyni zamanda "Dan ulduzu" da musiqidə bu cür yerdəyişmələr etdi, yeni duyğular seli ruhumuzu oxşadı. İsa İsmayılzadə asfaltdakı gölməçələri "sərçələrin soyuq hamamı" adlandırdı. Bazar gününə "maqnitofonumun iş günü" dedi. Və 1967-ci ildən səhərlərimiz ulduzlarla açıldı.

Yadımdan heç çıxmır, "Ulduz" jurnalının 1978-ci il 11-ci sayı. Gəncədə tələbə idim. Vaqif Cəbrayılzadə (Vaqif Bayatlı Odər) jurnalın poeziya şöbəsinin müdiri idi. Həmin vaxt jurnalda yer alan Gəncə səhifəsində mənim də şeirlərimin getməyi nəzərdə tutuldu. O vaxtlar nədənsə jurnalda şeirlərimdən də daha çox şəklimin getməsi mənə maraqlı gəlirdi. Bakıdaydım, Vaqif mənə dedi ki, sənin şəklini tapa bilmədik, şeirlərin şəkilsiz gedir. Dedim, gec deyilsə, çatdırım. Dedi ki, şəklini taksi ilə apar ver "Azərbaycan" nəşriyyatında Tofiq Mahmudova. Şəkli əlimdə hazır tutmusdum. Əyləşdim taksiyə. Nəşriyyata çatdım, Tofiqlə görüşdüm, baxdım ki, şəkil əlimdə yoxdur. Yadımdan çıxıb taksidə qalmışdı şəkil...

Həmin jurnalın üz qabığında Nəriman Nərimanovla yanaşı Leninin şəkli verilmişdi. Lenin Nərimanovun qoluna girmişdi. Nəri-

manovun ayağı Leninin ayağından bir sm qabaqda idi. O vaxt danışırdılar ki, bu rəsmə görə rəssamı cəzalandırmışdılar. İndi mənim üçün bu ağrılı 11-ci say altı yüzün içində ən önəmli yerlərdən birini tutur...

"Ulduz"un 2019-cu il may sayı filologiya elmləri doktoru İslam Sadığın mart sayı haqqında yumşaq gəzişmələri ilə açılır. Bu yazıda adətən 80-ci illərin ruhuna uyğun təhlillər var, necə ki şair təbiət təsvirini verir, hər şeyi olduğu kimi göstərir, xırda qüsurları qeyd etməklə işini başa vurur. Məncə, İslam Sadıq biliyinə və təcrübəsinə uyğun jurnalda yer alan mətnləri yetərincə dəyərləndirə bilib.

Rusiya Federasiyasının Voronej şəhərində yaşayan həmyerlimiz şair Günay Səma Şirvanın özüylə söhbəti və şeirləri jurnalın ilk səhifələrində yer alır. Yazarın özünə sualları və cavabları müasir prosesə uyğundur.

Yenidən keçmişə qayıdıram. Yusif Səmədoğlunun vaxtlarında Aydın Məmmədovun "Zamanla səsləşən şeirlər sorağında" adlı məqaləsi dərc olunubmuş.

Aydın Məmmədovun o yazısından sonra ədəbi prosesdə böyük bir partlayış oldu. Tənqid olunanlar hər tərəfə şikayət edirdilər. Baş redaktora, Yazıçılar Birliyinin sədrinə, Mərkəzi Komitəyə, hətta Moskvaya da. Amma Aydın Məmmədovun faktı göz qabağındaydı, keçilməz idi...

Jurnalda gənc yazıçı Vusal Oğuzun "Alman hesabı ilə çəkmə" hekayəsi özünəməxsus təhkiyə ilə yazılıb. Mətləb səni özünə bağlayıb aparır. Hiss olunur ki, yazıçı qələmə aldığı hadisəyə dərindən bələddir. Amma bəzən müəllifin cümlələri təcrübəsizlikdən axsayır. Hadisə bizi çəkir, bəzən sözləri unuduruq. Diqqətlə baxanda isə... "Bayaq **oturduğu** oturacaqda indi bir tələbə qız **oturmuşdu".** Və yaxud: "O gecə dəhşətli duman idi". Dumana dəhşətli deməzlər. Amma ümumilikdə hekayənin məzmunu və müəllif işığı xoşuma gəldi...

Yusif Səmədoğlunun vaxtlarında jurnalda Vaqif Səmədoğlunun ilk şeirlərinin (jurnalda ilk dəfə) dərc olunduğu yaxşı yadımdadır. Yusif qardaşının – Vaqifin 12 vərəqlik şeir dəftərini "oğurlamışdı". Biz o vaxt bu şeirləri Damcılı bulağın suyu kimi ciyərlərimizə çəkdik...

"Ulduz" jurnalı "Vektor" Beynəlxalq Elm Akademiyası ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar müsabiqə keçirib. Müsabiqə qaliblərinin – birinci yerin qalibi Emin Pirinin, 2-ci yerin qalibi Firdovsi Rəsulun, 3-cü yerin qalibi Ruslan Dostəlinin şeirlərini diqqətlə oxudum. Hər üç şairin şeiri mətn baxımından orijinal və böyük Nəsimiyə yaraşan şeirlərdir.

"Yazı masası" rubrikasında jurnalın əməkdaşları Fərqanə və Talehin bu il 60 illiyini qeyd etdiyimiz tanınmış şair İlham Qəhrəmanla


BU SAYIMIZDA

3 İslam SADIQ Bir bulaq gözüdür hər ürək
9 Günay SƏMA ŞİRVAN özüylə söhbəti və şeirləri
14 Vüsal OĞUZ Alman hesabi ilə çəkmə
17 Bizim laureatlar
19 yazı masası
22 Seyyid Hüseyn NASR qısa fikirlər xəzinəsi
27 Fərqanə YUSİFQIZI şeir vaxtı
29 Oğuz AYVAZ Anama bənzəyən qadın
31 Bəxtiyar ASLAN türk eli
35 Sabahın xeyir, ömrüm...
38 Tural CƏFƏRLİ Yuxu
40 Şəfa VƏLİ esse
43 Ayişə NƏBİ şeir vaxtı
46 Tural ANAROĞLU Yadplanetli
53 Vasif SÜLEYMAN şeir vaxtı
55 NARINGÜL Professor
60 İlqar DUMAN uşaq ədəbiyyatı
62 Seyhun HÖKMDAR Debüt
63 Qalib ŞƏFAHƏT Mühakimə
66 Şərafəddin İLKİN şeir vaxtı
68 Mina RƏŞİD esselər
71 Gi de MOPASSAN tərcümə saatı
76 Firudin HƏMİDLİ debüt
77 Şəfaq SAHİBLİ Sönməyən ocaq
78 dərgidə kitab

Təsisçilər:
Azərbaycan Yazıçılar Birliyi və «Ulduz» jurnalının kollektivi

Baş redaktor
Qulu Ağsəs

Redaksiya heyəti
Tərانə Vahid
(Baş redaktor müavini)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Səhər
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nurənə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Nisəbəyim
Fərid Hüseyn
Məshəti Musa
Elşən Əzim
Seyfəddin Altaylı (Türkiyə)
Xaqani Qayıblı (Estoniya)
Baloğlan Cəlil (Başqırdıstan)
Saodat Muxammadova (Özbəkistan)
Nilufər Şıxlı (Moskva)
Günay Səma Şirvan (Voronej)

Bədii redaktor
Ədalət Həsən

Ünvanı: AZ1000, Bakı, Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
dursul@mail.ru
www.ayb.az
Telefon: 498-72-43
Çapa imzalanıb: 22.05.2019
«Ulduz» jurnalı redaksiyasında yığılıb səhifələnib.
«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC-də çap olunub.
Sifariş. №38, Tiraj: 300
Qiyməti: 2 man.
1967-ci ildən çıxır
Şəhadətnamə № 238

Nömrənin eksperti:
Qəşəm Nəcəfzadə

“Şeirlərimi  süfrənin bir qırağında yazıram” söhbəti  çox təbii və ürəyəyatan alınıb.

“Qısa fikirlər xəzinəsi” rubrikasında  iranlı professor Seyid Hüseyn  Nasrın aforizmləri, “Şeir vaxtı”nda Fərqanə Yusifqızının  şeirləri, Oğuz Ayvazın “Anama bənzəyən qadın” hekayəsi, “Türk eli” bölməsində Bəxtiyar Aslanın “Aynadakı yolçuluq” yazısı, “Tribuna” bölümündə Xəyalə Əfəndiyevanın tanınmış şair Arzu Nehrəmlinin yaradıcılığına həsr olunmuş “Sabahın xeyir, ömrüm”, Şəfa Vəlinin  Qulu Ağsəsdən bəhs edən  “Özünün olmadığı yerləri oxucunun əlindən tutub gəzdirən” esseləri maraqlı lövhələrlə zəngindir.

Tural Cəfərlinin “Yuxu” hekayəsində məzmun gözəldir, qarşıya qoyulan ideya, məqsəd müasirdir. Amma yenə də əksər gənclərə xas olan problem  Tural Cəfərlidən də yan keçmir. Məsələn, cümləyə bax: “Hərdən Ayana da kömək **edir,** bəzi dərmanların alınmasında **yaxından iştirak edirlər”.**

...Vaxtilə “Ulduz” jurnalında  Mürşid Məmmədovun  “Misra və onun fikir yükü” tənqidi məqaləsi çap olundu.  Məncə, bu yazı da Aydın Məmmədovun məşhur məqaləsinin doğurduğu nəhəng ədəbi dalğanın bir qanadı idi. Əlbəttə, şair misradan başlayır. Gərək misralar boş olmasın, sünbül kimi dopdolu olsun.

Ayişə Nəbinin  şeirlərini həmişə  izləmişəm. Başqa mətbuat səhifələrindən də, “Ulduz”dan da. Ancaq nədənsə onun şeirlərində oxucu ilə reaksiyaya girməyə – danışmağa mane olan nəsə görürəm. Məncə, kifayət qədər ədəbi təcrübəsi olan Ayişə xanım bu maneənin nədən ibarət olduğunu bilməmiş olmazdı. Məsələn:

Dağ gündüzlər mərdliyim, qürurum,
Gecələr əjdahaya dönüb kabusum olurdu.
Biz dağların havası,
meşələrin ahəngi ilə ruhlandıq.
Mən dənizə baxaraq böyümədim,
Dənizi heç böyütmədim.
Dümdüz qum səhraları görmədim.
Axan çayla rəvan oldu ruhum.
Axan sulara sevdalandım.

Misraları, daha doğrusu, cümlələri ən möhtəşəm fikirlərlə zənginləşdirmək olar. Amma poeziya deyilsə, nəyə lazım? Birdən elə bilərsiniz, mən burda qafiyə axtarıram, əsla yox. Axtardığım əsas şey bədiilikdir. Bədiilik yoxdursa, şeirdən söhbət gedə bilməz. Mən Ayişə xanımın şair qüdrətinə çox inanıram. İstəyirəm ki, o, şeirlərinə ritm versin, ahəng versin, nəfəs və səs versin. Misraları dilsiz qoymasın. Misralar bizlə danışa bilsin.

...Elə bu anda yadıma Vaqif Cəbrayılzadənin ötən əsrin 70-ci illərinin sonunda  jurnalda ilk dəfə dərc olunan şeirləri düşdü. “Qardaşımın üzü köməyim olsun” misrası o vaxtkı  ədəbi prosesin  baş cümləsinə çevrildi.

80-ci illərdə Ramiz Rövşənin “Bu yaz gecəsində ölməyə nə var” baş cümləsi ilə başlayan şeirləri və hekayələri, Dilsuzun “Yol” hekayəsi, Camal Yusifzadənin “Ay qonşu, bu evin yiyəsi hanı?”, İsaq İbrahimovun “Mən köhnə kişiyəm, bala” devizi ilə başlayan şeirləri bütün ədəbi prosesi ardınca çəkib aparırdı...

Gələk bu ilin  may sayına. Yazıçı  Tural Anaroğlunun “Yadplanetli” hekayəsi müasir nəsrimizin dəyərli nümunələrindən sayıla bilər. Aydın dil, üslub, məsələnin qoyuluşu və həlli, müasirlik, qoca dünyaya, yorulmuş  həyata yeni baxış bucağı əsərin  əsas gücünü təşkil edir.

Vasif Süleymanın şeirləri, Narıngülün “Professor” hekayəsi müasir  düşüncənin  ifadəsi kimi maraqlıdır. Vasif Süleymanın hecası  min illik hecaya yeni dad qata bilir. Narıngül hekayədən hekayəyə püxtələşir.

“Debüt” bölümündə Seyhun Hökmdarın və Firudin Həmidlinin şeirlərində maraqlı misralar olsa da, tam halda bitkin şeirə çevrilə bilmir. Mən istəyirəm, onlar şeiri qurmasınlar, folklora üz tutsunlar, belədə xalq şeir intonasiyası ilə şeirlərindəki sükutu asanlıqla aradan qaldıra bilərlər. Qalib Şəfahətin “Mühakimə” hekayəsi, Şərafəddin İlkinin, Şəfəq Sahiblinin  şeirləri, Mina Rəşidin esseləri, Sevil Gültənin  Gi De Mopassandan etdiyi “Mademuazel Koko” hekayəsi özlərini oxucuya maraqla təqdim edə bilir.

Beləliklə, mən  sevimli jurnalımın 600-cü nömrəsi haqqında səmimi  danışdım. Qoy hər günümüz ulduzlarla açılsın. Bir sözlə, “qardaşımın üzü köməyiniz olsun”...